# Online Training Program

Proqram sosial hüquqlara dair maarifləndirici sual-cavablardan ibarətdir

## Azərbaycan Respublikası Konstitusiyası hansı sosial hüquqlara təminat verir?

- Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində göstərilir ki, hər kəsin sosial təminat hüququ vardır. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

## Azərbaycan Konstitusiyasının hansı maddələri vətəndaşların sosial hüquqları ilə bağlıdır?

- Konstitusiyanın 34-43-cü maddələri vətəndaşların sosial hüquqları ilə bağlıdır.

## Sosial hüquqlar hansı əsas beynəlxalq sənədlərdə öz əksini tapıb?

- Ümumi Bəyannaməsinin 22-26-cı maddələrində
- "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Paktın 9-12-ci maddələrində
- Avropa Sosial Xartiyasında öz əksini tapıb

## Məcburi köçkünlərin hansı sosial təminatı var?

- "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanununa əsasən məcburi köçkünlər barəsində bu sosial müdafiə tədbirləri tətbiq edilir:

- müvəqqəti yaşayış sahəsi ilə tə`min edilməsi;
- məşğulluğun tə`min edilməsi;
- sosial təminat;
- tibbi təminat;
- təhsil hüququnun təmin edilməsi;
- nəqliyyat və mənzil-kommunal güzəştləri;
- vergi güzəştləri.

## Əmək müqavilə ilə işləyənlərin minimum iş saatı və illik məzuniyyəti nə qədərdir?

- Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir

## Azərbaycan Konstitusiyası sosial hüquqların müdafiəsinə təminat verir

- Konstitusiyanın 60-cı maddəsi digər hüquq və azadlıqlar kimi sosial hüquqların da inzibati və məhkəmə müdafiəsinə təminat verir. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.
- Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın

## Hansı əsas təhsil hüququm var?

Konstitusiyanın 42-ci maddəsində göstərilir ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

## Hüquqlarım müdafiəsi zamanı necə hüquqi yardım ala bilərəm?

- Konstitusiyanın 61-ci maddəsi hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu nəzərdə tutur və burada həmçinin deyilir ki, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

## Sağlam ətraf mühitdə yaşamaq hüququ nə deməkdir?

- Konstitusiyanın 39-cu maddəsi sağlam ətraf mühitdə yaşamaq hüququnu nəzərdə tutur. Həmin maddədə deyilir ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

- Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

## Məhkəməyə müraciət üzrə buraxılmış müddətin bərpa edilməsi mümkündür?

- Əgər məhkəməyə müraciətlə bağlı müddət üzürlü səbəbdən buraxılmışdırsa, bu halda iddia ərizəsinin, apellyasiya, kassasiya və əlavə kassasiya şikayətinin verildiyi məhkəməyə eyni zamanda müddətin bərpası ilə bağlı ərizə də təqdim edilməlidir. Məhkəmə müddətin buraxılmasını üzürlü hesab etdikdə, buraxılmış müddəti bərpa edə və müraciəti qəbul edə bilər.

## Hansı instansiyadan sonra Avropa İnsan Hüquqlarına Məhkəməsinə müraciət etmək olar?

- Şikayətçi ölkədaxili hüquq müdafiə mexanizmlərindən tam istifadə etdikdən sonra Ali Məhkəmənin müvafiq kollegiya-larının qərarından narazı qalarsa, müvafiq qaydalara və tələblərə əməl etməklə ərizə ilə Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilər.

- Eyni zamanda onu da qeyd edək ki, bir sıra hallarda işin xarakterinə görə həmin iş üzrə sonuncu məhkəmə instansiyası apellyasiya məhkəməsidirsə (məsələn, məhkəmə nəzarəti qaydasında baxılan işlər), bu halda apelyasiya məhkəməsinin qərarından sonra Avropa Məhkəməsinə şikayət vermək olar.

## Avropa İnsan Hüquqları Məhkəməsinə verilən şikayət ananonim ola bilər?

- Məhkəmə anonim (imzalanmayan və ya düzgün imzalan-mayan) ərizələri qəbul etmir. Müraciət ərizəçini tanıtmalıdır.

- Bununla yanaşı, ərizəçinin xahişi ilə onun adı məxvi saxlanıla bilər. Belə halda ərizəçinin adı Məhkəmə hesabatlarında onun adı və soyadının baş hərflərilə göstərilir.

## Avropa Konvensiyası və ona əlavə edilmiş Protokollardakı əsas hansı hüquqlar ilə bağlı Avropa Məhkəməsinə müraciət etmək olar?

- *Yaşamaq hüququ;*
- *Mülki və cinayət işlərində ədalətli mühakimə olunmaq hüququ;*
- *Şəxsi və ailə həyatına hörmət olunması hüququ;*
- *Fikri ifadə etmək azadlığı;*
- *Fikir, vicdan və din azadlığı;*
- *Səmərəli hüquqi müdafiə vasitələri hüququ;*
- *Ədalətli məhkəmə araşdırması hüququ;*
- *Seçmək və seçilmək hüququ;*
- *Toplaşmaq və birləşmək azadlığı;*
- *Hərəkət azadlığı;*

## Məhkəmədə verilən iddialar üzrə kimlər dövlət rüsumu ödəməkdən azaddırlar?

- Şəhid ailələri, müha- ribə  veteranları, qaçqınlar və məcburi köçkünlər, habele Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər

## Konstitusion mənzil hüququm nədir?

- Mənzil hüququ Konstitusiyanın 43-cü maddəsində təsbit olunub. Burada deyilir ki, hər kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz. Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür.

## Sosial hüquqların inzibati müdafiəsi nədir?

- *Sosial hüquqların inzibati qaydada müdafiəsi "İnzibati icraat haqqında" qanunla müəyyən edililmiş qaydada həyata keçirilir. Bu qaydaya görə inzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən (hərəkətsizliyindən) və aktından həmin orqanın tabe olduğu yuxarı inzibati orqana şikayət vermək yolu ilə həyata keçirilir*

## Sosial hüquqların inzibati müdafiəsi hansı qanunlarla tənzimlənir

- Sosial hüquqların inzibati qaydada müdafiəsi əsasən, Konstitusiya, “İnzibati icraat haqqında” qanun və digər müvafiq normativ hüquqi aktlarla tənzimlənir

## Sosial reabilitasiya nədir?

- **Sosial reabilitasiya** – əlillərin və sağlamlıq imkanları məhdud uşaqların həyat səviyyəsinin yaxşılaşdırılmasını, onlara cəmiyyətin həyatında iştirak etmək üçün digər vətəndaşlarla bərabər imkanlar yaradılmasını təmin edən tədbirlər sistemidir.

## Əlilliklə və uşaqların sağlamlıq imkanları məhdudluğu ilə bağlı tələbat necə müəyyənləşdirilir?

- Əlilliklə və uşaqların sağlamlıq imkanları məhdudluğu ilə bağlı tələbatın müəyyənləşdirilməsi qaydası və şərtləri tibbi-sosial ekspert komissiyasının rəyinə əsasən və əlilin, sağlamlıq imkanları məhdud uşağın peşə və məişət fəaliyyəti, təhsil alma qabiliyyəti nəzərə alınmaqla təyin edilir. Əlilin, sağlamlıq imkanları məhdud uşağın zəruri sosial müdafiəsinin növləri və həcmləri tibbi, sosial-əmək reabilitasiyasına və uyğunlaşmasına dair fərdi proqram şəklində təqdim olunur.

## İşəgötürən işçilərin təhlükəsiz əmək şəraiti ilə təmin olunması üçün cavabdehdir?

- Mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar işçilərə müəyyən olunmuş standartlara uyğun təhlükəsiz əmək şəraiti yaradır və onların əmək qabiliyyətinin aşağı düşməsinə, sağlamlığına vurulmuş ziyana görə qanunvericiliyə uyğun məsuliyyət daşıyır, müalicə və reabilitasiya xərclərini ödəyirlər.

Hər hansı idrad, təklif və tövsiyyələriniz varsa, himerkez@yahoo.com və office@law.org.az emailinə yazmağınız xahiş olunur